ŞAGİRDLƏRİN BİLİK, BACARIQ VƏRDİŞLƏRİNİN HESABA ALINMASI ÜSULLARI

Səhyəddin Məmmədov, Şahismayıl İsmayılov
AMİ-nin Mingəçevir filialının baş müəllimləri

Açar sözlər: *bacarıq, anlayış, stimul, təsəvvür.*
Ключевые слова: *утиные, понятие, стимул, представление.*
Key words: *ability, conception, stimulus, imagination.*

Şagirdlərdə yalnız onların kifayət qədər tam və konkret təsəvvürlərə malik olduqları hadisələr və proseslər haqqında anlayışlar formalaşa bilər. Biz təlim prosesində birinci növbədə anlayışların izahı üçün zəruri olan təsəvvürləri intişar etdiririk. Bu təsəvvürlərdə öz ümumiləşməsini anlayışlarda tapan tarixi hadisələrin mühüm əlamətlərini ayırırıq. Biz təsəvvürləri formalaşdırmaqla anlayışlar üçün özül qoyuruq. Anlayışları formalaşdırmaqla həm də şagirdlərin təsəvvürlərini inkişaf etdiririk, zənginləşdiririk və konkretləşdiririk. Bununla bərabər təsəvvür və anlayışların formalaşdırılması metodikasını işləyib hazırlamaq üçün hansı priyomların təsəvvür və anlayışların formalaşmasına daha səmərəli xidmət etdiyini aydın surətdə müəyyən etmək tələb olunur. Təsəvvürlərin və anlayışların formalaşmasına dair bəzi priyomlar bir-birindən fərqlənir. Digərləri isə o qədər uyğun gəlir ki, təsəvvürlərin formalaşdırılmasına dair işin haradan başlandığını və anlayışların formalaşdırılmasına dair işin harada qurtardığını seçmək çətin olur.

Tarix fənninin tədrisində böyük didaktik əhəmiyyəti olan məsələlərdən biri də tarixi anlayışların öyrənilməsidir. Bu, hər şeydən əvvəl, elmi əsasların şüurlu surətdə mənimsənilməsini tələb edir.

Anlayışların formalaşması zamanı biz şagirdlərin fikri fəaliyyətinin stimullaşdırılmasına və bu fəaliyyətə rəhbərlik edilməsinə yönəldilmiş priyom tətbiq edirik. Məktəblilər müəllimlərin rəhbərliyi altında hadisəni fikrən hissələrə ayırır, hadisələrin mühüm əlamətlərini seçir, onları qeyri-mühüm əlamətlərdən ayırır və eyni cür hadisələrin ən mühüm əlamətlərini ümumiləşdirirlər. Məktəblilərdə tarixi anlayışların formalaşmasına aparıb çıxaran bu məntiqi fəaliyyət tarixin təlimində çox zaman tarixi təsəvvürlərin formalaşmasına xidmət edən yeni materialın qavranılması ilə uzlaşdırılır. Məsələn, dərslikdə tablonu və yaxud rəsmləri təhlil edərkən, onların məzmununu təhlil və sintez edərkən müəllim şagirdlərdə öyrənilən hadisələrin mühüm əlamətlərini əks etdirən zaman bu əlamətləri ümumiləşdirən anlayışların formalaşmasına dair iş aparır. Tarixin təlimində anlayışların formalaşmasına dair aparılan işin yolları və priyomları müxtəlifdir. Birinci növbədə formalaşdırılan anlayışların məzmun və mürəkkəbliyindən asılıdır. Əgər bəzi maddi əşyalar (karpun, kotan, gəmi) haqqındakı anlayışlar bir-iki təsvirin, əşyanın təhlili əsasında, yəni bilavasitə təsəvvürlərin zəminində kifayət qədər dolğun şəkildə formalaşdırıla bilərsə, ictimai hadisələr və səbəb-nəticə əlaqələri haqqındakı mürəkkəb anlayışların formalaşdırılması bütün tədris ili boyunca davam edir.

Şagirdlərin anlayışlarının dərinliyi və möhkəmliyi, əsas etibarilə müəllimin şagirdlərdə fikri fəaliyyəti necə oyada bilməsindən və ona necə rəhbərlik edə bilməsindən asılıdır. Məktəblərimizdəki mövcud təlim şəraiti imkan verir ki, şagirdlər ümumi tarixi hadisələri yerli şəraitlə yaradıcı şəkildə əlaqələndirərək ümumiləşdirmələr aparmaqla öyrənsinlər. Bəzən elə hallar olur ki, şagirdlərə nə qədər deyilsə də, onlar tarixi materialı mənimsəyərkən və onu şərh edərkən əsas məsələlərdən yan keçir və onu bilməyin əhəmiyyətini lazımi dərəcədə dərk etmirlər. Bəzən də elə olur ki, müəllim dərsə lap yaxşı hazırlaşan şagirdlərin şərhini kəsir və təhlili məntiqi suallara istiqamətləndirir. Bu isə şagirdlərin tarixi bilikləri, anlayışları və s. müstəqil şəkildə mənimsəmək və tarixi hadisələrdən müstəqil surətdə baş çıxarmaq bacarığının yaradılması işinin pozulmuş olduğunu göstərir. Bəs bu cür vəziyyətdən hansı yolla çıxmaq olar? Şagirdləri hansı vasitələrlə bu cəhətlərə ciddi fikir verməyə vadar etmək mümkündür?

Söz yox ki, həmin vəziyyət bir çox səbəblərdən irəli gəlir. Bu səbəbləri harada axtarmaq məsələsinə gəldikdə isə müəllim və şagirdlərin qarşılıqlı fəaliyyətinə, öyrədilən materialın özünə bir daha ciddi nəzər salmaq lazım gəlir. Ona görə də tarixi anlayışların mənimsənilməsi prosesində müəllim tərəfindən şagirdlərin bilik sahəsindəki müvəffəqiyyətlərinə yekun vurmağa, hiss olunan çatışmazlığı vaxtında aradan qaldırmağa imkan verən qiymətləndirmə işinə bu cəhətdən yaradıcı şəkildə yanaşmaq böyük əhəmiyyət kəsb edir. Anlayışların formalaşdırılmasına dair işdə evrestik müsahibə böyük yer tutur. Bu müsahibədə müəllim öz sualları ilə şagirdlərin fikrini addımbaaddım, pillə-pillə tarixi hadisələrin mahiyyətinə nüfuz etmək yolu ilə aparır. Müəllim tarixi anlayışları mühüm əlamətlərinə ayırmaq və ümumiləşdirmək üçün şagirdlərə mətnlə, əyani vasitələrlə, tarixi sənədlərlə bağlı tapşırıqlar verir. Tematik cədvəllər, çertyojlar tərtibini şagirdlərin özlərinə tapşırır. Bu prosesin həyata keçirilməsi qruplarla iş zamanı şagirdlərin məntiqi təfəkkürünü, tədqiqat işini inkişaf etdirir.

Yeni materialın öyrənilməsi zamanı artıq tanış anlayışdan istifadə edilməsi, ona yeni faktlar əlavə edilməsi şagirdlərin şüurunda anlayışın dərinləşməsinə, zənginləşməsinə, konkretləşdirilməsinə aparıb çıxarır.

Təlimdə mühüm yer tutan anlayışların növündən biri tarixi proseslər haqqında anlayışlardan ibarətdir.

Tarixi proseslər haqqında anlayışların formalaşmasında, həmçinin tarixi hadisələrin ardıcıllığını və qarşılıqlı əlaqəsini göstərən sxematik əyani vasitələr, tabaşirlə çəkilən sxemlər və rəsmlər, cədvəllər, aplikasiyalar böyük rol oynayır.

Şagirdlərdə tarixi proseslər haqqında anlayışların formalaşmasına dair işdə müəllim səbəb-nəticə əlaqələrinin sabitliyini və zəruriliyini göstərmək yolu ilə cəmiyyətin inkişafının bəzi qanunauyğunluqlarını başa düşməyə aparıb çıxarmağa çalışır. Beləliklə, cəmiyyətin inkişafının elmi surətdə başa düşülməsinin ilkin əsaslarını qoyur.

Tarixi təsəvvürlərin formalaşdırılması zamanı müəllim şagirdlərin iş fəaliyyətinin əsas cəhətinə (obrazların qavranılması, onların yaddaş və təxəyyül vasitəsi ilə yenidən canlandırılması), tarixi anlayışların formalaşdırılması işində isə şagirdlərin analitik – sintetik fikri fəaliyyətinə istinad edir. Bu fəaliyyətin həyata keçirilməsində rollu oyunlar və digər təlim üsullarının tətbiqi xüsusi əhəmiyyət kəsb edir (hadisələrin hissələrə ayrılması, onların müqayisə edilməsi, ümumi və fərqli cəhətlə ayrılması, ümumiləşdirmə və s.). Təsəvvür və anlayışların formalaşdırılmasına dair iş üsullarındakı əsas fərq bundan ibarət-

dir. Ümumi cəhət odur ki, təsəvvürlərin formalaşdırılmasına dair işdə şagirdlərin analitik – sintetik fikri fəaliyyətini təmin etmədən (mühüm cəhətin seçilməsi, ayrılması, qavrayışların dərk edilməsi), anlayışların formalaşdırılması zamanı isə hissi obrazlara istinad etmədən keçinə bilmərik.

Təbiidir ki, yeni tarixi hadisələr və yaxud onların əlamətləri haqqında materialı ilk dəfə verərkən şagirdlərdə parlaq konkret təsəvvürlərin formalaşdırılmasına yönəldilən priyomlar əsas rol oynayır. Hadisələrin mahiyyətinə daha dərindən nüfuz etdikcə anlayışların formalaşdırılmasına yönəldilmiş priyomların rolu yaranır. Daha ümumi anlayışların, məsələn, “mədəniyyət” anlayışının formalaşdırılması zamanı müəllim bilavasitə konkret təsəvvürlərə deyil, əvvəllər formalaşmış daha xüsusi anlayışlara, bu halda “elm”, “yazı”, “incəsənət” kimi anlayışlara istinad edir. Bu tarixi prosesin dövriləşdirilməsi və qanunauyğunluqları haqqında anlayışların formalaşdırılmasına daha artıq dərəcədə aiddir.

Şagirdlərin biliklərinin yoxlanılması və uçotu tarixin tədrisi metodikasının ən mürəkkəb məsələlərinə aid olub, dəfələrlə metodik ədəbiyyatda müzakirə edilmişdir.

Bu işdə bir də belə bir cəhət diqqəti cəlb edir ki, “qiymətləndirmədə nəzərəçarpan hər hansı bir haqsızlıq şagirdlərin təlimdən soyuması, əsl bilik və bacarıq uğrunda mübarizə etməkdən çəkinməsi ilə nəticələnə bilər” [2, səh 203].

Buna görə də şagirdlərin rəsmiləşmiş biliklərinin aşkar olunmasına yönəldilmiş yoxlama testləri ilə bərabər, tarix fənnini tədris edən müəllimin arsenalında sərbəst forma və həcmli “açıq” cavabı olan tapşırıqlar da olmalıdır. Subyektləşdirilmiş biliklərin yoxlanılması və qiymətləndirilməsi üzrə bəzi meyarlar təklif olunur: şagirdlərin tapşırıqda verilən və ya müstəqil tapılan səmərəli iş üsulundan istifadə bacarığı; mənbədən (və ya mənbələrdən) ən əsas, əhəmiyyətli nəticənin sübutu və ya öz variantının əsaslandırılması, keçmişin faktlarının qiymətləndirilməsi üçün zəruri olanları seçmək bacarığı; müvafiq anlayışlardan istifadə bacarığı; öz cavabını məntiqi ardıcıllıqla düzmək bacarığı; onu lazımi formaya salmaq bacarığı və s. Qeyd olunan meyarlar əsasında müəllim şagirdlərin yoxlama tapşırıqlarını necə yerinə yetirdiyini yoxlaya və onları qiymətləndirə bilər.

Diskussiya bacarıqlarının qiymətləndirilməsi: Burada əsasən dəlillərin əsaslandırılması, diskussiya iştirakçılarının polemika aparmaq bacarıqları götürülür. Müəllim aşağıdakıları qiymətləndirə bilər: faktlara (mənbələrdən, xəritələrdən, illüstrasiyalardan, statistik məlumatlardan və s. götürülmüş) əsaslanmış məlumatın şərhini və ya ona əlavələri; oxşarlığın müəyyənləşdirilməsini; səhvlərə diqqət yetirilməsini.

Debatların qiymətləndirilməsi: Debatın nəticələrinin yekunlaşdırılmasının ən yaxşı forması hər iki tərəfə müraciət olunmuş - “Rəqibin ən yaxşı dəlilləri hansılar idi?” – sualından istifadədir. Müəllim işi fərdi və ya cütlərlə qiymətləndirə bilər.

Yaradıcı tapşırıqların qiymətləndirilməsi zamanı əsas diqqəti şagirdin nəyi mənimsədiyinə və cavablarında nəyi çatdırdığına, tapşırığı nə dərəcədə müstəqil yerinə yetirdiyinə, təlim işinin hansı üsul və bacarıqlarından istifadə etdiyinə yönəltmək lazımdır.

Essenin qiymətləndirilməsi zamanı isə essenin qiymətləndirilməsi meyarları:

– essenin məzmununun anlaşılması və tam açılması;

– öz fikrinin faktlarla, mənbə məlumatları ilə, nəzəri dəlil və mülahizələrlə inandırıcı şəkildə əsaslandırılması;

– terminlərdən, tarixi faktlardan və

* 5 “Azərbaycan məktəbi” № 3

digər tarixi məlumatlardan düzgün istifadə;

– düşüncələrin məntiqli və aydın olması;

– emosional – dəyər münasibətlərinin ifadəsi;

– esse stilinin həmahəngliliyi və ifadəliliyi məqsədəuyğundur.

Qruplarda işləmək bacarığı

Qrupun işi verilərkən onun meyar cədvəli də hazır olmalıdır. Şagirdlərə xatırladılmalıdır ki, hər bir kəsin işi qrupun işinə xidmət edir və qrupun qiymətinə təsir edir. Bu zaman iş vərəqindəki tapşırıqların yükü bərabər verilməli, verilən vaxt cədvəlini əhatə etməlidir. Qrupların işi təqdim olunarkən bir qrup digər qrupun işinə münasibət bildirməli, əlavə fikirlər olarsa söyləməlidir. Nəticələrin çıxarılmasında bütün kollektivin iştirakı təmin edilməlidir.

Ay, rüb və yaxud yarımillik üzrə ümumi qiymət orta bal hesab edilə bilər. Şagirdlərin öz işlərini və qrupun fəaliyyətində iştirakını qiymətləndirməyin (özünüqiymətləndirmə yolu ilə) nəzərə alınması çox faydalıdır. Bu zaman qiymətləndirmə meyarları ilə şagirdləri əvvəlcədən tanış etmək çox vacibdir. Müəllim yuxarıda qeyd olunan meyarlara öz qərarı ilə digər parametrləri də əlavə edə bilər.

Rəyçi: dos. İ.Cavadov

İstifadə edilmiş ədəbiyyat

1. Tarixin tədrisində müasir üsullar (Şərhlər, tövsiyələr, nümunələr). Bakı, 2000.

2. Veysova Z. Fəal dərsin aparılması üzrə tövsiyələr. Bakı, 2004.

3. Veysova Z. Fəal/İnteraktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2003.

С.Мамедов,
Ш.Исмайлов

Методы принятия в счет знаний, навыков и умений учащихся

Резюме

Формирование исторических понятий и представлений, показ концептуальных знаний и их методика органически связаны друг с другом. У учащихся могут сформироваться представления о конкретно известных им случаях и процессах. Для этого истолковываются необходимые компоненты объяснения этих понятий.

S.Mammadov,
Sh.Ismayilov

Evaluation of students' knowledge, abilities and skills

Summary

The article is dedicated to the formation of historical conseptions and imaginations. It is noted that demonstration of conceptual knowledge and its methods are organically connected with each other. Students' mentality is formed by some imaginations about the concrete accidents and process. That is why it is necessary to form important imaginations to understand the conception.